# Azərbaycanda heç bir sosial layihə təxirə salınmır

**Son günlər paytaxtda istifadəyə verilən bir sıra sosial-iqtisadi obyektlər, bölgələrdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirlərinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.**

*Mən demişəm, bir daha demək istəyirəm və bütün vətəndaşlar bunu bilsinlər, biz heç bir sosial layihəni dayandırmayacağıq, heç bir sosial proqramı ixtisar etməyəcəyik. Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Göründüyü kimi, Prezident İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti, vaxtında görülmüş qabaqlayıcı tədbirləri dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə şərait yaradır. Bu da bir daha təsdiq edir ki, Azərbaycanın uğurlu sosial siyasəti var, cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edən dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətdə vətəndaşların mənafeyi öndə gəlir.

Bu amil, başqa sözlə, dövlət başçımızın rəhbərliyi ilə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində həyata keçirilən çoxşaxəli islahatlar ölkəmizin daha da qüdrətlənməsini, dinamik inkişafını gerçəkləşdirir. .

Yeri gəlmişkən, 44 günlük Vətən müharibəsində şanlı qələbəmizi şərtləndirən əsas amillərdən biri də məhz elə bu məsələ oldu. Prezident İlham Əliyev çıxışlarında da dəfələrlə vurğulayıb ki, sosial rifah yüksək olmasa, iqtisadiyyat inkişaf etməsə, hərbi və siyasi gücdən söhbət belə gedə bilməz: “Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli siyasət aparıldı, müstəqil siyasət aparıldı. O siyasət ki, yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir”.

Ötən il və bu il də davam edən qlobal pandemiya insan sağlığı ilə yanaşı, dövlətlərin iqtisadiyyatına da ciddi mənfi təsirini göstərdi. Belə bir dönəmdə möhkəm təməl üzərində qurulan iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə düzgün istiqamətdə aparılması nəticəsində ölkəmizdə sosial təminata yönələn vəsaitlərdə ciddi artım oldu. Belə ki, keçən il pensiya, müavinət və təqaüd, ünvanlı sosial yardım üzrə əhaliyə 2019-cu ilin müvafiq dövrünə nisbətən 1 milyard manatdan artıq çox vəsait ödənildi. Bu artımın 700 milyon manatdan çox hissəsi pensiya, qalanı müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə ödənişlərdəki artımlar hesabına reallaşdı. Ötən il pensiyaların orta aylıq məbləği 14 faiz artaraq 300 manat təşkil etdi. Pensiyaların sığorta hissəsi 16,6 faiz indeksasiya edilərək artırıldı, 1,2 milyon artıq pensiyaçını əhatə edən bu artım üçün aylıq 50 milyon manata yaxın əlavə vəsait ödənildi.

Vətəndaşlara ödənilən sosial müavinətdə 2020-ci ildə 18 faiz artım olub. Ötən il ünvanlı sosial yardım alan ailələrin sayı 9 min ailə (58 min ailə üzvü) artaraq ümumilikdə 74,4 min ailə (312 min ailə üzvü) təşkil edib. Hər bir ailəyə düşən orta aylıq məbləğ 2019-cu illə müqayisədə 15 faiz yüksələrək 238 manat təşkil edib. Bundan başqa, müharibə əlilləri və şəhid ailələrinə 1500-ə yaxın mənzil və fərdi ev verilib. Ümumiyyətlə, indiyədək bu kateqoriyadan olan vətəndaşlara 9 min ev ayrılıb. Müharibə əlillərinə 400-dək avtomobil verilib və ümumilikdə onlara verilən avtomobillərin sayı 7150-yə çatıb.

Pandemiya ilə əlaqədar məşğulluq və sosial rifaha dəstək üzrə tədbirlər əhalinin təqribən 5 milyon nəfərini əhatə edib. Özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilib və 12 min ailə proqrama cəlb olunub.

Özünüməşğulluq proqramına şəhidlərinin və itkin düşmüş hərbçilərin ailələri, yaralanmış hərbçilər cəlb edilib. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2021-ci il üçün ehtiyac meyarının həddi 170 manat məbləğinə çatdırılıb.

Yeri gəlmişkən, qeyd edək ki, 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz düşməni məhv edərək, torpaqlarımızdan qovub çıxardı. Dəmir yumruqla başı əzilən düşmən Azərbaycan əsgəri qarşısında diz çökdü və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsində qazanılan parlaq qələbə, təbii ki, qəhrəman şəhid və qazilərimizin canı-qanı bahasına əldə edildi. Elə buna görə də postmüharibə dövrü başlanan kimi, müharibə əlilləri və şəhid ailələrinə dəstək layihələrinə start verildi.

Hazırda bu tədbirlər Vətən müharibəsi şəhidlərinin və itkin düşmüş hərbçilərin ailələrini, yaralanmış hərbçiləri, erməni terrorundan zərər çəkənləri və müharibə iştirakçılarını – ümumilikdə 6 minədək şəxsi əhatə edir. Yeri gəlmişkən, indiyədək 900 şəhidin 2 mindən çox ailə üzvünə pensiya, müavinət, təqaüd təyin edilib. Hazırda bu proses davam edir.

Şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillərlə təmin edilməsi istiqamətində aparılan işlər də diqqət mərkəzində saxlanılıb. Belə ki, 2020-ci il ərzində şəhidlərin və itkin düşmüş hərbçilərin ailələrinin, yaralanmış hərbçilərin məşğulluq və özünüməşğulluq məsələlərinin istiqamətində tədbirlər həyata keçirilib.

Vətən Müharibəsindən sonra “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”na dəyişiklik olunub və şəhid statusu Gəncə və Naftalan şəhərlərində, Bərdə rayonunda erməni təxribatı nəticəsində həlak olmuş mülki şəxslərə də aid edilib.

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanlar dövlət başçısının şəhid ailələrinə, müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, Milli qəhrəmanlara, İkinci Dünya müharibəsi iştirakçılarına, əlilliyi olan şəxslərə xüsusi qayğısının növbəti əyani təzahürüdür.

Qeyd edək ki, şəhid ailələri və əlilliyi olan şəxslər Prezidentin təqaüdü ilə yanaşı, aylıq əsasda müavinət və ya pensiya ilə də təmin olunurlar.

Dövlət başçısının müvafiq fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanına Prezidentin aylıq təqaüdünün məbləği 20 faiz artırılaraq 1500 manatdan 1800 manata çatdırılıb.

İkinci Qarabağ müharibəsində möhtəşəm zəfərimizin qazanılmasına mühüm töhfələr vermiş Vətən müharibəsi qəhrəmanlarının sosial müdafiəsi də Prezidentin diqqətindədir. Dövlət başçısının imzaladığı müvafiq fərmanla sosial təminat sistemində yeni təqaüd növü kimi, Vətən Müharibəsi Qəhrəmanı üçün Prezidentin aylıq təqaüdü (2 min manat) də təsis olunub.

Prezident İlham Əliyevin 2021-ci il 25 yanvar tarixli “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamı da həmin kateqoriyadan olan əhali qruplarına dövlət başçısının xüsusi qayğısının bariz ifadəsidir. Bu, eyni zamanda, dövlət başçısının xalqımızın, xüsusilə həssas təbəqənin rifahının daha da yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlamasından xəbər verir.

Onu da qeyd edək ki, Vətən müharibəsinin başladığı ilk gündən etibarən ölkə rəhbərinin diqqət və qayğısı erməni vandalizmindən zərər çəkmiş vətəndaşlarımızın üzərində idi. Hələ müharibənin aktiv fazası başa çatmamış yaşayış yerləri erməni vəhşiləri tərəfindən dağıdılmış əhalinin müvəqqəti məskunlaşdırılması üçün müvafiq addımların atılması, onların həyat şəraitinin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsi bir daha Azərbaycan Prezidenti üçün insan amilinin hər şeydən önəmli olduğunu göstərdi.

Adıçəkilən sərəncam 2020-ci ildə Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin də yaxın dövrdə mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur.

Sənəddə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müəyyən kateqoriyadan olan şəxslərin (ailələrin) 2021–2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirməsi tapşırılır. Bu zaman mənzil və ya fərdi evlə təminat ilk növbədə 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyənləşdirilən şəxslərin, şəhid ailələrinin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi və hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi ilə əlaqədar əlilliyi təsdiqlənən şəxslərə aid edilir.

Daha sonra isə yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyənləşdirilən şəxslər və şəhid ailələrinin mənzil və ya fərdi evlə təmin edilməsi nəzərdə tutulur.

Sərəncamda yerli icra hakimiyyəti orqanlarına qeyd edilən şəxslər barədə məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmələri, nazirliyin müraciəti əsasında həmin şəxslərin mənzil və fərdi evlə təminatı məqsədləri üçün torpaq sahələrinin ayrılmasını reallaşdırmaları, hər il görülmüş işlər barədə Azərbaycan Prezidentinə məlumat vermələri tapşırılıb.

Cari ildə qarşıda duran sosial hədəflər sırasına isə postmüharibə dövrü üzrə sosial dəstək tədbirlərinin daha da genişləndirilməsi, sosial ödənişlərinin davamlılığının təmin edilməsi, işğaldan azad edilmiş ərazilərdə sosial infrastrukturun qurulmasına başlanması, sosial proqramların, o cümlədən mənzil və avtomobillə təminat, özünüməşğulluq və s. proqramların daha da genişləndirilməsi, yeni DOST, reabilitasiya və sosial xidmət mərkəzlərinin yaradılması, nazirlik üzrə e-xidmətlərin sayının 61-dən 100-ə çatdırılması və s. daxildir.

*“Xalq qəzeti”*